# Türkdilli dövlətlərin əməkdaşlığında yeni mərhələ

## *Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammiti təsdiq etdi ki, türk dünyasının geoiqtisadi əhəmiyyəti artır*

**Dünyadakı qloballaşma, müasir çağırışlar şəraitində türkdilli dövlətlərin əhəmiyyəti daha da artır. Yeni formatda – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində keçirilən Sammitdə səslənən fikirlər göstərir ki, siyasi və diplomatik həmrəyliyi ən yüksək səviyyədə saxlamaq, bu ölkələrin hər birinin marağındadır. Qazaxıstanın paytaxtı Astanada yüksək səviyyədə keçən Sammitdəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, türkdilli ölkələrin əməkdaşlığının təməlində bizim ortaq tariximiz, ortaq mədəniyyətimiz, etnik köklər dayanır: "Budur bizi birləşdirən amillər və biz öz fəaliyyətimizi bu təməl üzərində qururuq. Bu gün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası artıq beynəlxalq aləmdə də özünəlayiq yer tuta bilib. Əminəm ki, gələcəkdə Şuranın fəaliyyəti daha da uğurlu olacaq".**

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammitində ötən il ərzində görülən işlər təhlil olunub, dəyərləndirilib və eyni zamanda, gələcək əməkdaşlıq üçün əlavə layihələrin, tədbirlərin həyata keçirilməsi haqqında fikir mübadiləsi aparılıb. Sözsüz ki, türk dünyasının digər qurumları olan Türk PA, TÜRKSOY, Türk Akademiyası son illər ərzində ölkələrimiz arasında əlaqələrin genişlənməsinə böyük töhfələr verib. Türk xalqlarının mədəniyyətinin və incəsənətinin təbliğində mühüm rol oynayan TÜRKSOY Təşkilatının yaradılmasının 22 ili tamam olur. Əslində, humanitar sahənin ölkələrimizi daha sıx birləşdirdiyini vurğulayan cənab İlham Əliyev bildirib ki, bu baxımdan, xüsusilə TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirirəm. TÜRKSOY nəinki bizim dövlətlətimizi, bütün türk xalqlarının birləşdirir: "Əminəm ki, biz gələcəkdə də bu təşkilatın fəaliyyətinə öz dəstəyimizi verəcəyik. Eyni zamanda, TÜRKSOY ilə yanaşı, yeni qurumlar da yaranır. Onların içərisində Türk Akademiyasını xüsusilə qeyd etmək istəyirəm. Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması, hesab edirəm ki, gələcəkdə müxtəlif konkret layihələrin icrası üçün gözəl imkan yaradacaqdır. Ortaq televiziya kanalının yaradılması da bizim həm niyyətimizi ifadə edir, həm də siyasətimizi göstərir. Bir neçə il ərzində bu məsələ ilə bağlı danışıqlar aparılmışdır. Artıq bu qərar da qəbul olundu. Hesab edirəm ki, həm xalqlarımız, həm dünya üçün bizim mədəniyyətimiz, tariximiz, milli dəyərlərimiz, o cümlədən bugünkü həyatımız böyük maraq doğuracaqdır".

Həqiqətən də, türkdilli dövlətlərin birliyinin möhkəmlənməsində və inkişafında humanitar əməkdaşlıq çox mühüm yer alır. Dillərimizin, mədəniyyətlərimizin, tarixi keçmişimizin ümumiliyi bizim əlaqələrimizin qaynağıdır. Hazırda türkdilli dövlətlər əlaqələrini geniş miqyasda, səmərəli və dinamik inkişaf etdirmək və bunu strateji tərəfdaşlıq münasibətlərinə transformasiya etmək əzmindədirlər. Əminliklə demək olar ki, Sammit çərçivəsi barəsində razılıq əldə edilmiş məsələlər konkret nəticələr verəcəkdir. Ona görə ki, bu dövlətlər arasında birliyin təmin edilməsinə böyük əzmkarlıq və ən başlıcası, müəyyən edilən qərarları yerinə yetirməyə sadiqlik vardır.

Öz çıxışında iqtisadi, investisiya, energetika sahələrində potensial əməkdaşlığın konkret layihələrinə diqqət çəkən cənab İlham Əliyev bildirib ki, iqtisadi əməkdaşlığımıza da çox böyük önəm veririk. Azərbaycan qonşu ölkələrə, türkdilli dövlətlərə investisiyalar yatırır və bizim ölkəyə də investisiyalar qoyulur: "Azərbaycan Qazaxıstan, Türkmənistan üçün artıq tranzit ölkəyə çevrilibdir. Həm enerji daşıyıcıları, həm digər yüklər Azərbaycan ərazisindən keçir. Nəqliyyat təhlükəsizliyi Şuraya üzv olan hər bir ölkə üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan çalışır ki, müasir infrastrukturun yaradılması ilə bu işə töhfəsini versin. Hazırda Bakıda yeni böyük Beynəlxalq Dəniz Ticarəti limanı inşa edilir. Bu limanın ümumi yükaşırma qabiliyyəti 25 milyon tona bərabər olacaqdır. Eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi davam edir. Azərbaycan üzərinə götürdüyü bütün öhdəlikləri, əminəm ki, yaxın aylarda yerinə yetirəcək. Bu dəmir yolu əslində Asiyanı Avropa ilə birləşdirən dəmir yoludur. Qeyd etməliyəm ki, keçən ay Çindən, Qazaxıstan ərazisindən Azərbaycana birinci sınaq konteyner qatarı da yola salınmışdır və hesab edirəm ki, artıq bu birinci addım çox uğurlu olmuşdur. Əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası başa çatandan sonra on milyonlarla ton yeni yük bizim ərazimizdən keçəcək və beləliklə, həm iqtisadi, həm siyasi maraqlarımızı təmin edəcək".

Türkdilli ölkələr Avropanı, Qafqaz və Orta Asiyadan keçməklə Çin vasitəsilə Şərq və Şərqi Asiyaya bağlayacaq strateji bir xətt üzərində yerləşir. "İpək Yolu" və ya "Orta dəhliz" adlandırılan bu layihənin ən mühüm hissəsi Azərbaycan ilə Türkiyənin birgə həyata keçirdiyi Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Bölgədəki vəziyyəti dəyişdirəcək bu layihələr çərçivəsində işlər başa çatmaq üzrədir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti türkdilli dövlətlərin əməkdaşlıq şurasına üzv olan ölkələr arasında sürətli nəqliyyat imkanları yaradaraq iqtisadi və ticarət əlaqələrinin inkişafına böyük töhfə verəcəkdir. Qeyd edək ki, bu dəmir yolunun istifadəyə verilməsi ilə Orta Asiyadan keçməklə Çindən Avropaya birbaşa əlaqə yaradılacaqdır.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən transmilli layihə – Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi böyük tarixi nailiyyətdir. Yaxın zamanlarda bu magistral xəttin istifadəyə verilməsi ilə bölgədə tamamilə yeni vəziyyət yaranacaq və Azərbaycan beynəlxalq tranzit mərkəzi kimi daha da möhkəmlənəcək. Bu magistral xətt Asiya ilə Avropanı birləşdirən çox mühüm nəqliyyat arteriyası olacaqdır. BTQ-nin reallaşması Avrasiya kimi nəhəng məkanda yerləşən onlarca ölkənin iqtisadi və sosial həyatına yeni nəfəs verəcəkdir. Qərbi Avropadan çıxan bir qatar birbaşa Xəzər sahillərinə, oradan da Aktau limanından keçməklə Şanxaya və Seula çatacaqdır. İngiltərədən başlayaraq, Çinə və Koreyaya qədər birbaşa dəmir yolu əlaqəsi yaradacaq və bu möhtəşəm xətt türkdilli dövlətlərin iqtisadi qüdrətini artırmaqla yanaşı, həm də strateji əhəmiyyət daşıyan çox önəmli layihə olacaqdır.

Xəzər dənizinin tranzit qabiliyyətinin artırılmasının, Avrasiya quru nəqliyyat dəhlizi layihəsinin önəminə diqqət ayıran prezident Nursultan Nazarbayev bu layihələrin Türk Şurasına üzv dövlətlər arasında müxtəlif sahələrdə, o cümlədən turizmin inkişafında mühüm rol oynayacağını bildirib. Qazaxıstan prezidenti 2017-ci ildə Astanada keçiriləcək Expo sərgisində Türk Şurasına üzv ölkələrin geniş təmsil olunacaqlarına əminliyini ifadə edib, türkdilli dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, texnologiya və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətinin vurğulayıb. Təhsil sahəsində əməkdaşlığın faydasını dəyərləndirən Qazaxıstan prezidenti orta türk tarixi fənninin tədrisinin vacibliyindən danışıb və bu baxımdan Türk Akademiyasının rolunu yüksək qiymətləndirib. Orta Türk İnvestisiya Fondunun qurulmasının vacibliyini bildirən Nursultan Nazarbayev, həmçinin Ortaq Türk Televiziya Kanalının da yaradılması istiqamətində fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini açıqlayıb.

Xatırladaq ki, 2009-cu ildə Naxçıvan Sazişi ilə yaradılan Türk Şurası qardaş ölkələrimiz arasında birliyi təmin etmək və daha da möhkəmlətmək üçün ötən illərdə keçirilən sammitlərdə verilən tövsiyə və təlimatlar istiqamətində səmərəli və çox faydalı işlər görülüb. Bununla da əsas məqsəd qardaş ölkələr arasında ikitərəfli formatda mövcud əməkdaşlığı əhatəli şəkildə çoxtərəfli münasibətlərə çevirmək olub.

Astana Sammitinin mövzusu olan informasiya texnologiyaları və media məsələləri də türkdilli dövlətlərin iqtisadi və mədəni sahədə inteqrasiyasında çox əhəmiyyətli yer alır. Odur ki, Ortaq Türk Televiziya kanallarının və Ortaq Xəbər Agentliyinin yaradılması ilə əlaqədar anlaşma memorandumları imzalanıb. Təbii ki, informasiya sahəsində belə mühüm layihələrin həyata keçirilməsi qardaş xalqların əlaqələrinin daha da dərinləşməsinə xidmət edəcək. Dünyanın qlobal gerçəklərində ölkələrimizin həmrəyliyə ehtiyacı hər zaman olduğundan daha çoxdur. Ölkələrimiz arasında qarşılıqlı münasibətlərdə yeni səhifə açan Zirvə görüşündəki çıxışlarda səslənən fikirlər belə deməyə əsas verir ki, iqtisadi və siyasi imkanlardan bərabər faydalanmaq ancaq ölkələrimizin potensialını birləşdirməklə mümkündür.

Şükür ƏLİZADƏ,
"Respublika".